| | |
|---|---|
| AKTIN NÖVÜ | İqtisadiyyat Nazirliyi |
| QƏBUL EDİLDİYİ TARİX | 24.05.2021 |
| QEYDİYYAT NÖMRƏSİ | 5 |
| ADI | “Satılan unun hər tonuna görə un istehsalçılarına subsidiyanın verilməsi Qaydası”nın təsdiq edilməsi haqqında |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 05.06.2021 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 090.010.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | 15202105240005 |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 04.06.2021 |

**AZƏRBAYCAN RESPUBLİKASI İQTİSADİYYAT NAZİRLİYİNİN KOLLEGİYASI**

**Q Ə R A R**

**5**

**Bakı şəhəri** **24 may 2021-ci il**

**"Satılan unun hər tonuna görə un istehsalçılarına subsidiyanın verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında**

"Ərzaqlıq buğdanın idxal qiymətinin artmasının ölkə daxilində satılan un və un məmulatlarının qiymətinə mənfi təsirlərinin azaldılması ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 16 fevral tarixli 37 nömrəli Qərarının 2.1-ci bəndinin icrası məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin 5.11.4-cü yarımbəndini rəhbər tutaraq Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyası

**QƏRARA ALIR:**

**1.** "Satılan unun hər tonuna görə un istehsalçılarına subsidiyanın verilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).
**2.** Hüquq şöbəsinin müdiri Tural İsgəndərova tapşırılsın ki, bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi məqsədi ilə 3 gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilməsi üçün zəruri tədbirlər görülməsini təmin etsin.
**3.** Kollegiyanın məsul katibi, Daxili nəzarət şöbəsinin müdir müavini Elnur Əliyevə tapşırılsın ki, bu Qərarın surətinin göndərilmə siyahısına uyğun çatdırılmasını təmin etsin.
**4.** Bu Qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Əsas:** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiya iclasının protokolu.

**Sədr,**
**iqtisadiyyat naziri** **Mikayıl Cabbarov**

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin
Kollegiyasının 24 may 2021-ci il tarixli 5 nömrəli
qərarı ilə təsdiq edilmişdir.

**Satılan unun hər tonuna görə un istehsalçılarına subsidiyanın verilməsi**
**Q A Y D A S I**

**1.Ümumi müddəalar**

1.1. "Satılan unun hər tonuna görə un istehsalçılarına subsidiyanın verilməsi Qaydası" (bundan sonra – Qayda) Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Ərzaqlıq buğdanın idxal qiymətinin artmasının ölkə daxilində satılan un və un məmulatlarının qiymətinə mənfi təsirlərinin azaldılması ilə bağlı əlavə tədbirlər barədə" 2021-ci il 16 fevral tarixli 37 nömrəli Qərarının 2.1-ci bəndinin icrası məqsədilə hazırlanmışdır.

1.2. Bu Qaydanın tələblərinə əsasən un istehsalçısı dedikdə, Azərbaycan Respublikasının ərazisində un istehsalı üçün mülkiyyətində, yaxud istifadəsində olan zəruri avadanlıqlardan istifadə etməklə xammaldan (alınmış və ya idxal edilmiş ərzaqlıq buğdadan) bilavasitə un istehsal edərək istehsal etdiyi unu təqdim edən və (və ya) təsərrüfatdaxili qaydada digər təsərrüfat subyektində (obyektində) emal edərək un məmulatı təqdim edən şəxslər nəzərdə tutulur.

**2. Un istehsalçılarına subsidiyanın verilməsinin təşkili və hesablanması**

2.1. Un istehsalçıları tərəfindən subsidiya alınması üçün istehsal edilmiş unun və ya istehsal edilmiş undan emal edilmiş un məmulatlarının satışını təsdiq edən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 2 fevral tarixli 26 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektron qaimə-fakturanın forması, tətbiqi, uçotu və istifadəsi Qaydaları"na uyğun olaraq verilən elektron qaimə-faktura məlumatlarını və istehsalla bağlı Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 16 iyun tarixli 1460 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İstehsal fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydası"na uyğun olaraq tərtib edilən "istehsal ehtiyatlarının istehsala buraxılışı qaimə-fakturası" məlumatlarını növbəti ayın 5-dək bu Qaydanın 1 nömrəli əlavəsinə uyğun formada Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə təqdim edirlər.

2.2. Un istehsalçıları tərəfindən bu Qaydanın 2.1-ci bəndində müəyyən edilən məlumatlar müvafiq ayın 5-dən sonra təqdim edildikdə həmin müraciətlər növbəti ay üzrə nəzərə alınır.

2.3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət DövlətXidməti təqdim edilmiş məlumatları ümumiləşdirir, bu Qaydanın 2.4-cü bəndinə uyğun olaraq dəqiqləşdirir və müvafiq ay üzrə un istehsalçılarına ödəniləcək vəsaitlərin məbləğinin *(Azərbaycan Respublikası Nazirıər Kabinetinin 'Ərzaqlıq buğdanın idxal qiymətinin artmasının ölkə daxilində satılan un ıə un məmulatlarının qiymətinə mənfi təsirlərinin azaldılması iıə bağlı əlavə tədbirlər barədə" 2021-ci il 16 fevral tarixli 37 nöməli Qərarının 1-ci ıə 1-1-ci hissələrində müəyyən edilmiş qaydada)* hesablanmasını və cari ayın 15-dək icmallaşdırılmasını, *habelə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim edilməsini* təmin edir.[1]

2.4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti

aşağıdakı məlumatlar əsasında un istehsalçılarına ödəniləcək subsidiyanın hesablanması üçün əsas olan un çəkisinin azaldılması, məhdudlaşdırılması və ya qismən məhdudlaşdırılması barədə qərar qəbul edə bilər:

2.4.1. müvafiq un istehsalçısı tərəfindən Azərbaycan Respublikasının antiinhisar qanunvericiliyinin tələblərinin pozulması halları aşkar olunduqda;

2.4.2. müvafiq un istehsalçısının un satışı üzrə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumatı əsasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 iyul tarixli 265 nömrəli Qərarı ilə təsdiq edilmiş "Riskli vergi ödəyicisinin, o cümlədən riskli əməliyyatların Meyarları"na uyğun olaraq riskli əməliyyatlar aparması müəyyən olunduqda;

2.4.3. müvafiq un istehsalçısı tərəfindən istehlakçıların hüquqlarının pozulması və ya məhdudlaşdırılması halları müəyyən olunduqda.

2.5. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti bu Qaydanın 2.3-cü bəndinə əsasən un istehsalçılarına alacaqları subsidiyanın məbləği, habelə subsidiya məhdudlaşdırıldığı təqdirdə müvafiq izahatı özündə əks etdirən bildirişi cari ayın 20-dək göndərir.

**3. Subsidiyanın ödənilməsi qaydası**

3.1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ~~*yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti*~~ bu Qaydanın 2.3-cü bəndinə əsasən icmallaşdırılmış məlumatlar əsasında subsidiyanın ödənilməsi ilə bağlı bu Qaydanın 2 nömrəli əlavəsinə uyğun ödəniş sifarişini cari ayın 20-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyinə təqdim edir. [2]

3.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyi 2 (iki) bank günü ərzində bu Qaydanın 3.1-ci bəndinə uyğun olaraq təqdim edilmiş ödəniş sifarişi əsasında subsidiya məbləğlərinin *Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin hesabına* köçürülməsini həyata keçirir. [3]

*3.3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi 2 (iki) bank günüərzində bu Qaydanın 3.2-ci bəndinə uyğun olaraq ayrılmış subsidiya məbləğlərinin un istehsalçılarının bank hesablarına köçürülməsini həyata keçirir.* [4]

"Satılan unun hər tonuna görə un istehsalçılarına
subsidiyanın verilməsi Qaydası"na
**1 nömrəli əlavə**

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi
yanında Antiinhisar və İstehlak Bazarına
Nəzarət Dövlət Xidmətinə

2021-ci ilin ________________ ayında________________________________________
______________________________________________________________________
(un istehsalçısının hüquqi ünvanı)
____________________________________________________________ tərəfindən
(hüquqi şəxsin adı, soyadı, adı, atasının adı, VÖEN-i, )

**Un istehsalçısının təqdim etdiyi un həcminə dair**
**MƏLUMAT**

| | **Təqdim edilmiş elektron qaimə-fakturanın** | | **İstehsal ehtiyatlarının istehsala buraxılışı qaimə-fakturasının** | | **Məhsulun adı** | **Çəkisi (ton)** | **Qiyməti (manat)** | **Məbləği (manat)** |
|---|---|---|---|---|---|---|---|---|
| | **Tarixi** | **Seriya və nömrəsi** | **Tarixi** | **Seriya və nömrəsi** | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| **CƏMİ** | - | | - | | - | | | |

Bank rekvizitləri:
_______________
_______________

Un istehsalçısı olan hüquqi şəxsin
vəzifəli şəxsi / Fərdi sahibkar
__________ _______________________
M.Y. (imza) (vəzifəsi, soyadı, adı, atasının adı)
Tarix _____ __________ 2021-ci il

Əlaqə telefonu _________________

“Satılan unun hər tonuna görə un istehsalçılarına subsidiyanın verilməsi Qaydası”na
**2 nömrəli əlavə**

**2021-ci ilin _______________ ayı üzrə un istehsalçılarına ödənilməli olan subsidiya məbləğinə dair**
**ÖDƏNİŞ SİFARİŞİ**

| | **Un istehsalçısı barədə məlumat** | | | **Ödəniləcək subsidiyanın məbləği** |
|---|---|---|---|---|
| | **Hüquqi şəxsin tam adı və ya fiziki şəxsin S.A.A** | **VÖEN-i** | **Bank rekvizitləri** | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| **CƏMİ** | | | | |

A z ə r b a y c a n Respublikasının İqtisadiyyat *Nazirliyinin* vəzifəli şəxsi: [5]

___________ ___________________________
M.Y. (imza) (vəzifəsi, soyadı, adı, atasının adı)


**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 15 noyabr 2021-ci il tarixli **16** nömrəli Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202111150016, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 18 noyabr 2021-ci il)**


**QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

[1] 15 noyabr 2021-ci il tarixli **16** nömrəli Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202111150016, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 18 noyabr 2021-ci il)** ilə “Satılan unun hər tonuna görə un istehsalçılarına subsidiyanın verilməsi Qaydası”nın 2.3-cü bəndində **“(un istehsalçıları tərəfindən satılmış unun və ya satışı həyata keçirilmiş emal edilmiş un məmulatlarının istehsalına yönəldilmiş unun hər tonunu 35 (otuz beş) manat subsidiya m əbləğinə vurmaqla)”** sözləri **“(Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Ərzaqlıq buğdanın idxal qiymətinin artmasının ölkə daxilində satılan un və un məmulatlarının qiymətinə mənfi təsirlərinin azaldılması ilə bağlı əlavə tədbirlər barədə” 2021-ci il 16 fevral tarixli 37 nömr əli Qərarının 1-ci və 1-1-ci hissələrində müəyyən edilmiş qaydada)”** sözləri ilə əvəz edilmişdir və “**icmallaşdırılmasını**” sözündən sonra “**, habelə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim edilməsini**” sözləri əlavə edilmişdir.

[2] 15 noyabr 2021-ci il tarixli **16** nömrəli Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202111150016, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 18 noyabr 2021-ci il)** ilə “Satılan unun hər tonuna görə un istehsalçılarına subsidiyanın verilməsi Qaydası”nın 3.1-ci bəndində “**yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti**” sözləri çıxarılmışdır.

[3] 15 noyabr 2021-ci il tarixli **16** nömrəli Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202111150016, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 18 noyabr 2021-ci il)** ilə “Satılan unun hər tonuna görə un istehsalçılarına subsidiyanın verilməsi Qaydası”nın 3.2-ci bəndində “**un istehsalçılarının bank hesablarına**” sözləri “**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin hesabına**” sözləri ilə əvəz edilmişdir.

[4] 15 noyabr 2021-ci il tarixli **16** nömrəli Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202111150016, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 18 noyabr 2021-ci il)** ilə “Satılan unun hər tonuna görə un istehsalçılarına subsidiyanın verilməsi Qaydası”na yeni məzmunda 3.3-cü bənd əlavə edilmişdir.

[5] 15 noyabr 2021-ci il tarixli **16** nömrəli Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202111150016, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 18 noyabr 2021-ci il)** ilə "Satılan unun hər tonuna görə un istehsalçılarına subsidiyanın verilməsi Qaydası"nın 2 nömrəli əlavəsində "**Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin**" sözləri "**Nazirliyinin**" sözləri ilə əvəz edilmişdir.